*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 12 mart 2016-cı il | № 19 (2034) | Qiyməti 25 qəpik


## Azərbaycan Respublikası vətəndaşlarının 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

1. 1998-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1981-1997-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikasının vətəndaşları 2016-cı il aprelin 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.
2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2016-cı il aprelin 1-dən 30-dək ehtiyata buraxılsınlar.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 7 mart 2016-cı il.

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik

## Müdafiə naziri ön xətdə yerləşən hərbi hissələrdə olub



*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev dövlətin etibarlı müdafiəsi və düşmən tapdağı altında olan Vətən torpaqlarının azad edilməsi məqsədilə həmişə ordu quruculuğuna böyük önəm verir. Ölkə başçısı tez-tez cəbhə bölgələrinə səfərlər edir, hərbi hissələrimizin hazırlığı və şəraiti ilə yaxından tanış olur. Ali Baş Komandanın bu mövqeyi Silahlı Qüvvələrimizin bütün şəxsi heyəti üçün əsl nümunədir.*

Ordu quruculuğunu dövlətimiz üçün prioritet hesab edən ölkə başçısı Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş əzəli-əbədi Azərbaycan torpaqlarını Silahlı Qüvvələrimizin azad etməyə hazır olmasını başlıca vəzifə kimi qarşıya qoyub.

**(Ardı 2-ci səhifədə)**



"Hazırlığın yüksək olması başlıca şərtdir"

4-cü səhifədə



"TURAZ Şahini - 2016" birgə taktiki-uçuş təlimləri başlayıb

5-ci səhifədə



"Adın şərəflidir sənin, ey qadın!.."

7-ci səhifədə



Ümidimiz, inamımız

8-ci səhifədə

# Düşmən mövqeləri darmadağın edilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, cəbhənin Ağdam rayonu istiqamətində qoşunların təmas xəttində Ermənistan silahlı qüvvələrinin növbəti dəfə təxribatının qarşısı alınıb.*

Düşmənin hərəkətlərinə cavab olaraq və gələcəkdə belə təxribatların qarşısını almaq məqsədilə Silahlı Qüvvələrimizin gördüyü qabaqlayıcı tədbirlər nəticəsində təmas xəttinin dərinliyindəki erməni mövqeləri darmadağın edilib. Nəticədə düşmənin təxminən 10-15 canlı qüvvəsi və hərbi texnikası məhv edilib.

Müdafiə Nazirliyi xəbərdar edir ki, düşmənin istənilən təxribat cəhdinin qarşısı Silahlı Qüvvələrimiz tərəfindən dərhal və qətiyyətlə alınacaq.

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri NATO-nun Müttəfiq Transformasiya Komandanının müavini ilə görüşüb

***Martın 9-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO-nun Müttəfiq Transformasiya Komandanının müavini general Mirko Zulianinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***



Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri işğalçı Ermənistanın bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə ciddi təhdid olduğunu, məhz bu səbəbdən də ölkəmizin müdafiə resurslarının əksər hissəsinin düşmən tərəfinin təcavüzkar siyasətinin qarşısının alınmasına yönəldiyini diqqətə çatdırıb.

Azərbaycanın NATO-nun tərəfdaşı olduğunu vurğulayan general-polkovnik Zakir Həsənov Alyansın Cənubi Qafqazda təhlükəsizliyə dair tutduğu prinsipial və davamlı mövqeyinin Avratlantik təhlükəsizliyin bölünməzliyi məsələsini gücləndirdiyini, regional sülh və sabitlik üçün mühüm əhəmiyyət kəsb etdiyini xüsusi qeyd edib.

NATO-Azərbaycan əlaqələrini yüksək qiymətləndirən general M.Zuliani Əfqanıstandakı əməliyyatlar çərçivəsində Azərbaycan sülhməramlılarının beynəlxalq təhlükəsizliyə verdiyi töhfəyə, Əməliyyat İmkanları Konsepsiyası proqramında fəal iştirak etdiyinə, Transformasiya Komandanlığı Qərargahında təmsilçiliyə və ümumilikdə uğurlu əməkdaşlığa görə Azərbaycan tərəfinə minnətdarlığını bildirib.

Görüşdə Azərbaycan ilə NATO arasında mövcud proqramlar daxilində əməliyyat, təlim, treninq, hərbi təhsil, təcrübə mübadiləsi və digər sahələr üzrə tərəfdaşlıq məsələləri, həyata keçirilən layihələr, əlaqələrimizin hazırkı vəziyyəti və inkişaf perspektivləri barədə geniş fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## Ali Baş Komandan İlham ƏLİYEV:

# Mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik

## Müdafiə naziri ön xətdə yerləşən hərbi hissələrdə olub



(Əvvəli 1-ci səhifədə)

Bu ilin yanvarında Azərbaycan Gənclərinin Birinci forumunun 20 illiyi münasibəti ilə ölkə gənclərinin bir qrupu ilə görüşərkən Prezident İlham Əliyev məhz Azərbaycan Silahlı Qüvvələrinə güvənərək bir daha bəyan etdi: "Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır. Bu bizim dədə-baba torpağımızdır. Heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik, azərbaycanlılar öz doğma torpaqlarına qayıdacaqlar və Dağlıq Qarabağa, eyni zamanda tarixi Azərbaycan torpaqlarına qayıdacaqlar."

Dövlət başçısının ordu quruculuğuna göstərdiyi diqqət və qayğı Silahlı Qüvvələrimizin fəaliyyətində bilavasitə öz əksini tapır. Hərbi islahatlar uğurla davam etdirilir, ordumuzun döyüş hazırlığı günügündən artır. Müdafiə naziri general-polkovnik Zakir Həsənov döyüş hazırlığının və nizam-intizamın gücləndirilməsini, silah-sursatla, hərbi texnika ilə davranışda təhlükəsizlik qaydalarının ciddi əməl edilməsini, hərbi qulluqçuların sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılmasını və sağlamlıqlarına diqqətin artırılmasını, o cümlədən hərbi hissələrin ərazisində aparılan quruculuq işlərini hərbi hissələrə səfərləri zamanı daim nəzarətdə saxlayır. Əsgərlərin mənəvi-psixoloji durumu və onların sosial şəraiti, zabit və gizir heyətinin hazırlıq səviyyəsi, hərbi birləşmələrin maddi-texniki təchizatının vəziyyəti ordu quruculuğu sahəsində atılmış qətiyyətli addımların nəticəsidir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti ordumuzun ayrı-ayrı qoşun növlərində döyüş hazırlığının vəziyyətilə yaxından tanış olmaq üçün tez-tez düşmənlə üzbəüz ərazilərdə döyüş növbəsi aparan bölmələrə baş çəkir. Müdafiə naziri və nazirliyin rəhbər heyəti bu günlərdə yenə cəbhəboyu zonada yerləşən birlik, birləşmə və hərbi hissələrdə olub.

Məlum olduğu kimi, Azərbaycan Ordusunun böyük bir kontingenti düşmənlə üzbəüz ərazilərdə təmas şəraitində həm döyüş növbəsi aparır, həm də Müdafiə Nazirliyinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq məşğələ və təlimlərdə iştirak edir, peşə bacarıqlarını artırır.

Təbii ki, Müdafiə nazirinin bilavasitə sədd və səngərlərə gəlməsi, əsgərlərimizlə səmimi ünsiyyətdə olması, həm də şəxsi heyətin döyüş ruhunun daha da yüksəldilməsi və Vətənimiz Azərbaycanın müdafiəsində onların daha ayıq-sayıq dayanması üçün böyük stimulverici qüvvəyə malikdir. Bu görüşlər zamanı nümunəvi xidmətilə seçilən hərbi qulluqçuların Müdafiə naziri tərəfindən mükafatlandırılması şəxsi heyətin mənəvi-psixoloji hazırlığına öz müsbət təsirini göstərir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi məlumata əsasən, ön xətdə yerləşən hərbi hissələrdə düşmənlə üz-üzə səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə naziri, onların döyüş hazırlığı və sosial-məişət şəraiti ilə tanış olub. Son illərdə təkcə arxada yerləşən hərbi hissələrimizdə deyil, cəbhə bölgəsində yerləşən və düşmənlə üzbəüz döyüş növbəsi çəkən hərbi hissələrimizdə də xeyli quruculuq işləri aparılıb. Həmin hissələrdə şəxsi heyətin sosial-məişət şəraiti, demək olar ki, ən müasir tələblərə cavab verir. Zabit və əsgərlərin döyüş növbəsindən sonra rahat istirahət etməsi, qidalanması yüksək səviyyədə təşkil olunub. Bütün bunlar şəxsi heyətin düşmənlə bilavasitə təmas şəraitində məsuliyyətlə xidmət etməsi və döyüş növbəsi aparmasında önəmli rol oynayır.



Düşmənlə təmas xəttində yerləşən bölmələrdən birində komanda-müşahidə məntəqəsinə baş çəkən Müdafiə nazirinə ərazideki əməliyyat şəraiti, müdafiə zolağında həyata keçirilən tədbirlər barədə məruzə edilib. Hərbi hissədə görülmüş mühəndis-istehkam işləri, şəxsi heyətin düşmən təxribatlarından qorunması üçün atılmış zəruri addımlardandır. Bu ərazilərdə səngər və sədlər, döyüş postları yenidən qurulub, möhkəmləndirilib və döyüş növbəsi aparan şəxsi heyətin etibarlı mühafizəsini təmin edir.

Öz növbəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüş zamanı səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyət Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etdiklərini və Ali Baş Komandanın əmri ilə ölkəmizin ərazi bütövlüyünün təmin olunması, işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda hər an döyüşə hazır olduqlarını bildiriblər.

**"Azərbaycan Ordusu",
fotolar
çavuş
Vüsal HƏMİDOVUNDUR**

## General-polkovnik Zakir HƏSƏNOV:

# “Əsas məqsədimiz düşməni darmadağın edib torpaqlarımızı işğaldan azad etməkdir”

## Cəbhəboyu zonada yerləşən yeni hərbi hissənin açılışı olub





***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, yeni tikilən növbəti hərbi hissənin açılışı olub.***



Müdafiə Nazirliyinin rəhbərliyi cəbhə bölgəsində yeni inşa edilən hərbi şəhərciyin ərazisindəki qərargah, zabit, gizir və əsgər yataqxanaları, xidməti, tədris və istirahət otaqları, döyüş texnikası üçün saxlanclar, sıra meydanı, yeməkxana, tibb məntəqəsi, hamam-camaşırxana, qazanxana kompleksi və digər obyektlər ilə tanış olub.

Şəxsi heyət qarşısında çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov bildirib: "Ali Baş Komandan tərəfindən ordu quruculuğuna göstərilən yüksək diqqətin nəticəsində biz bu gün növbəti hərbi şəhərciyin açılışında iştirak edirik. Cari ildə ilk yeni tikilmiş və bütün infrastrukturla təmin olunmuş hərbi hissənin açılışını həyata keçiririk. Bu quruculuq işləri və orduda həyata keçirilən islahatlar mərhələli surətdə davam etdiriləcəkdir.

Planlaşdırdığımız kimi ötən il ərzində on hərbi şəhərciyi istifadəyə verdik. Bu il də plana uyğun olaraq ondan çox müasir hərbi şəhərciyin inşa edilib şəxsi heyətin istifadəsinə verilməsini nəzərdə tutmuşuq.

Xüsusi qeyd etmək istəyirəm ki, dövlətimiz Silahlı Qüvvələrimizin bütün istiqamətlər üzrə inkişafını ciddi nəzarətdə saxlayır. Ordunun döyüş hazırlığı yüksəlir, hərbi hissələr yeni silah-sursatla, ən müasir döyüş texnikası ilə təmin olunur, şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşır, daimi və xidməti mənzillər istifadəyə verilir. Ordunun yüksək dağıdıcı gücə malik silahlarla təmin olunması işini biz bu il də davam etdirəcəyik. Şəxsi heyət dövlətin, xalqın etimadını doğrultmaq üçün gecə-gündüz durmadan çalışmalı və xidməti döyüş hazırlığını yüksəltməlidir.

Qarşımızda torpaqlarımızı işğaldan azad etmək kimi müqəddəs vəzifə dayanır. Cəbhədə, ön xətdə, səngərlərdə xidmət edən əsgər və zabitlərimiz yüksək qəhrəmanlıq, peşəkarlıq göstərirlər. Düşmənin başını qaldırmağa belə imkan vermirlər. Qarşı tərəf böyük itkilər verir. Bu haqq işimizi davam etdirəcək və düşməni darmadağın edəcəyik. Xocalı soyqırımını həyata keçirən, günahsız insanları qətlə yetirən mənfur düşmənlərimizi məhv edərək bütün şəhidlərin qisasını alacağıq və torpaqlarımızı işğaldan azad edəcəyik.



Mən bütün şəxsi heyəti yeni hərbi şəhərciyin açılışı və qarşıdan gələn Novruz bayramı münasibəti ilə təbrik edirəm. Əminəm ki, əsgər və zabitlərimiz Azərbaycan xalqının, ölkə rəhbərliyinin etimadını doğruldacaq, döyüş hazırlığını yüksək səviyyədə nümayiş etdirməklə qələbəmizi yaxınlaşdıracaq."

Şəxsi heyət təntənəli marşla tribunanın önündən keçdikdən sonra Müdafiə Nazirliyinin rəhbərliyi hərbi qulluqçularla birlikdə nahar edib.

Hərbi hissədə fəaliyyət göstərən çörəkbişirmə sexi ilə də tanış olan nazir, çörəyin istehsal şəraiti, keyfiyyəti ilə maraqlanıb və burada çalışan mülki işçilərlə görüşərək şəxsi heyətin təminatı ilə bağlı müvafiq göstəriş və tövsiyələrini verib.

Sonda hərbi hissəyə xatirə olaraq ərazidə çinar ağacları əkilib.



**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar çavuş Vüsal HƏMİDOVUNDUR**

# NATO nümayəndə heyəti hərbi hissələrdə olub



***Ölkəmizdə rəsmi səfərdə olan NATO-nun Müttəfiq Transformasiya Komandanının müavini general Mirko Zuliani rəhbərlik etdiyi nümayəndə heyəti ilə birlikdə martın 9-da Hərbi Dəniz Qüvvələrinin bazasında olub.***

Qonaqlar Hərbi Dəniz Qüvvələrinin rəhbərliyi tərəfindən qarşılanaraq ərazi ilə tanış olublar. NATO nümayəndə heyətinə hərbi-dəniz bazasının yaranma tarixi, strukturu, fəaliyyəti, hərbi gəmilərin təyinatı və digər məsələlərə dair ətraflı məlumat verilib.

Sonra general M.Zulianinin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı taborunda olub. Burada onlara şəxsi heyətin müxtəlif ölkələrdəki beynəlxalq missiyalarda icra etdikləri tapşırıqlar, təminat və təchizatı, bölmələrin hazırlıq sistemi, o cümlədən sülhməramlı taborun fəaliyyəti barədə məlumat çatdırılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# FTƏP və PAP üzrə NATO-nun ekspertlər qrupu ilə işçi görüşü keçirilib



Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikasının NATO ilə "Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı" (FTƏP) və "Planlaşdırma və Analiz Prosesi" (PAP) sənədlərinin Müdafiə Nazirliyinə aid hissəsinin həyata keçirilməsi üzrə NATO-nun ekspertlər qrupu ilə işçi görüşü keçirilib.

Tədbirdə müdafiə sahəsində aparılan islahatlar, NATO və tərəfdaş ölkələrlə əməkdaşlıq, FTƏP və PAP proqramları üzrə məqsədlərin və öhdəliklərin yerinə yetirilməsi, NATO-Azərbaycan hərbi təhsil və təlim sahəsində birgə fəaliyyət planı, eləcə də Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) çərçivəsində aparılan fəaliyyətlər və Azərbaycan sülhməramlılarının Əfqanıstandakı "Qətiyyətli Dəstək" missiyasına verdiyi töhfə barədə müzakirələr aparılıb.

# Hərbi təhsil sistemi üzrə ekspertlərin işçi görüşü başlayıb

Azərbaycanla NATO arasında birgə fəaliyyət planına uyğun olaraq, Silahlı Qüvvələrin Hərbi Akademiyasında hərbi təhsil sisteminin müəyyən sahələrinin inkişafına yardım üzrə NATO-nun ekspert qrupunun iştirakı ilə işçi görüşü başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iki gün davam edəcək tədbirdə Müdafiə Təhsilinin Genişlənməsi Proqramı çərçivəsində 2016-cı il üçün planlaşdırılmış fəaliyyətlər müzakirə olunacaq, müdafiə və təhlükəsizlik sahəsini əhatə edən bir sıra mövzular üzrə mühazirələr oxunacaqdır.



# "Cəbhədə əməliyyat şəraiti Silahlı Qüvvələrimizin tam nəzarəti altındadır"

Qoşunların təmas xəttində Azərbaycan Silahlı Qüvvələrinin bölmələri tərəfindən guya kəşfiyyat-təxribat əməliyyatının keçirilməsi barədə Ermənistan mətbuatının yaydığı məlumatlar tam yalandır, dezinformasiya xarakteri daşıyır və cəbhə xəttindəki vəziyyəti düzgün əks etdirmir.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər ki, Ermənistan tərəfi bu kimi xəbərləri yaymaqla son günlər cəbhədəki ciddi uğursuzluqlarını və verdikləri çoxsaylı itkiləri gizlətməyə cəhd göstərir.

"Düşmən elə bir qorxu içindədir ki, dinc sakinləri, hətta qoyun-quzu sürülərini də özlərinə qarşı təhlükə görürlər. Cəbhədə əməliyyat şəraiti Silahlı Qüvvələrimizin tam nəzarəti altındadır", - deyə Müdafiə Nazirliyinin məlumatında bildirilir.

*Gənc zabitlərimiz*

# "Hazırlığın yüksək olması başlıca şərtdir"

Deyirlər ki, göz qəlbin aynasıdır. Yəqin aqillər bu nəticəyə yüz illərin, min illərin müşahidəsindən sonra gəliblər. Doğrudan da, ilk dəfə qarşılaşdığın insanın gözünün içinə baxanda qəlbən necə olduğunu müəyyən etmək çətin olmur. Qəhrəman da, qorxaq da, ağıllı da, paxıl da gözlərindən, baxışlarından tanınır.

Ordu sıralarında bir müddət əvvəl xidmətə başlamış, gecə-gündüz torpaqlarımızın keşiyində dayanan leytenant Rəşad Hüseynovla ön xətdəki mövqelərin birində görüşdük. Görüşümüz qışın orta aylarında günəşli bir günə təsadüf etmişdi.

Leytenantın baxışları iti və ötkəmlidir. Gözlərindən məğrurluq, cəsurluq yağır. Əgər onun sinəsində cəsur bir ürək döyünməsəydi, yəqin ki, o, indi silaha sarılıb burada - Haramı düzündəki səngərlərdə dayanmazdı. Təbiidir ki, onu çətin peşəyə çəkib gətirən də Vətən sevgisi və yurda olan məhəbbətdir.

Ölkəmizin dilbər guşələrindən olan Qazax rayonunda dünyaya göz açan zabit Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirib. 2014-cü ildə əsgər kimi xidmətə çağırılıb. Həmişə zabit olmaq arzusu ilə yaşayan Rəşad istəyini komandanlığa bildirib. Sonra Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kurs keçib. Təlim-məşqlərdə fəal iştirak edərək hərbi biliklərə yiyələnib. Sınaqlardan uğurla keçərək arzusuna qovuşub. Leytenant rütbəsi alıb, zabit olub. Əsgər kimi xidmətə çağırıldığı bir orduda zabit kimi xidmətə başlayıb. Neçə vaxtdır ki, ön xətdədir. Haramı düzündə yurdumuza keşik çəkir.

- Xeyli vaxtdır doğma ordumuzun sıralarında xidmət edirəm, - deyə leytenant Rəşad Hüseynov ürəyindən keçən fikirləri ifadə etməyə başladı. - Arzuma, istəyimə qovuşmuşam. Ordumuzun güclü və qüdrətli olmasında az da olsa zəhmətim olduğu üçün qürurluyam. Əsgərlərimizin həm döyüş, həm də mənəvi-psixoloji hazırlığının yüksəldilməsi üçün əlimdən gələni əsirgəmirəm. Silahlar nə qədər müasir olsa da, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək olması başlıca şərtdir.

Torpaqları qorumaq vəzifəsi öncə biz hərbçilərin üzərinə düşür. Bu müqəddəs vəzifənin öhdəsindən bacarıqla gəlməyə çalışırıq. Atəşkəs rejimini pozan erməni qəsbkarları dəqiq atəş zərbələrimizlə susdurulur. Hər kəs xidmətinə məsuliyyətlə yanaşır. Bu gün qarşımızda dayanan ən başlıca vəzifə torpaqlarımızı erməni işğalçılarından azad etməkdir. Bundan ötrü isə hər an döyüşə hazırıq. Əminəm ki, düşmən qarşımızda dayana bilməyəcək. Biz erməniləri məhv edib işğal altında olan ərazilərimizə Qələbə bayrağı sancacağıq.



Söhbət zamanı öyrəndim ki, leytenantın qardaşı da əsgərdir. "N" hərbi hissəsində xidmət edir. Onun da arzusu qardaşı kimi zabit olmaqdır.

Xidmət etdiyi hərbi bölmədə leytenant Rəşad Hüseynovun haqqında xoş sözlər dedilər. Onun bacarıqlı və cəsur bir zabit olduğunu bildirdilər. "Biz vətənpərvər, bilikli və bacarıqlı zabitimizlə fəxr edirik. Ümid edirəm ki, onu qarşıda böyük uğurlar gözləyir", - deyə zabit Yasin Novruzov fikrini qısaca ifadə etdi.

Gənc zabitlə sağollaşıb digər mövqelərə gedirik. Onun iti baxışlarından qələbə sevincini duyuram.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# “TURAZ Şahini - 2016” birgə taktiki-uçuş təlimləri başlayıb



*Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq haqqında plana əsasən, Konya şəhərində iki ölkənin Hərbi Hava Qüvvələrinin cəlb olunduğu birgə taktiki-uçuş təlimləri başlayıb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, keçirilən təlimlərin əsas məqsədi Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında təcrübə mübadiləsini həyata keçirməklə, iki ölkənin Hərbi Hava Qüvvələrinin qarşılıqlı fəaliyyətinə nail olmaqdır.

Təlimlərdə iştirak edən Azərbaycan Hərbi Hava Qüvvələrinin 3 ədəd MiQ-29 qırıcı, 3 ədəd Su-25 hücum təyyarələri və şəxsi heyət Konya şəhərində yerləşən aviabazada təntənəli şəkildə qarşılanıb.

Qarşılanma mərasimində aviasiya bazasının komandiri general-leytenant Haluk Şahar çıxış edərək sayca ikinci dəfə keçirilən və böyük əhəmiyyətə malik "TURAZ Şahini - 2016" birgə taktiki-uçuş təlimlərində iştirak edən hər kəsə uğurlar arzulayıb və qurban kəsilib.

Təlimlər martın 25-dək davam edəcək.



## “TURAZ Şahini - 2016” taktiki-uçuş təlimlərinin açılış brifinqi keçirilib



*Azərbaycanla Türkiyə arasında illik hərbi əməkdaşlıq planına əsasən, keçirilən "TURAZ Şahini - 2016" taktiki-uçuş təlimlərinin açılış brifinqi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, brifinqdə çıxış edən general-leytenant Haluk Şahar təlim iştirakçılarını salamlayb. O, çıxışının əvvəlində Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" və ümummilli liderimiz Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamlarını xatırladaraq keçirilən təlimlərin hər iki dövlətin Silahlı Qüvvələrinin tarixində önəmli rol oynadığını vurğulayıb.

Sonra "TURAZ Şahini - 2016" təlimlərinin açılış brifinqi təqdim olunub, vəzifələrin mahiyyəti və tapşırıqların icrası ilə bağlı təlimatlar iştirakçılara çatdırılıb.

Təlimlərin məqsədi beynəlxalq manevr üsullarına uyğun olaraq qarşıya qoyulan vəzifələri icra etmək, sistem fərqlilikləri olan təyyarələrin birlikdə təhlükəsiz uçuş qaydalarını dərindən öyrənmək, vəzifələrin planlaşdırılması, həyata keçirilmə metodları, hava-hava, hava-yer atışlarında təcrübə mübadiləsini və iki ölkənin hərbi hava qüvvələri arasındakı əlaqələrin inkişafını təmin etməkdir.

Uçuşlar zamanı tapşırıqların asandan çətinə doğru artırılması planlaşdırılıb.

Təlimlər davam edir.




# Cəbhəyanı bölgədə psixoloji işin təşkili üzrə toplantı keçirilib

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi tərəfindən hərbi hissə və birləşmələrin psixoloqları, eləcə də şəxsi heyətlə iş üzrə zabitlərin iştirakı ilə Silahlı Qüvvələrdə psixoloji işin təşkilinə dair təlim-metodiki toplantı keçirilib.*



Cəbhəyanı bölgədə təşkil olunan toplantıda "Silahlı Qüvvələrdə psixoloji işin təşkili və aparılması haqqında təlimat" barədə Müdafiə nazirinin müvafiq qərarı və onun icrasını təmin etmək məqsədilə hərbi hissələrin psixoloqları və şəxsi heyətlə iş üzrə zabitləri üçün hazırlanmış yardımçı vəsaitlər şəxsi heyətə çatdırılıb.

İxtisaslı mütəxəssislər tərəfindən şəxsi heyətin fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi, psixoloji hazırlığı, psixoloji yardıma ehtiyacı olan hərbi qulluqçuların müəyyən edilməsi və onlara psixoloji yardımın göstərilməsi üzrə tələb və tövsiyələr, eləcə də həyata keçiriləcək fəaliyyətlər barədə müzakirələr aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***11 mart 2016-cı il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 millimetrlik minaatanlardan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 110 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Paravakar kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq kəndində və Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Yarımca, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Cəvahirli, Sarıcalı, Kəngərli, Novruzlu, Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitini nəzərə alaraq, düşmənin atəş nöqtələrinə, mövqelərinə və səngərlərinə 115 dəfə atəş zərbəsi endirib.

### General Səməd bəy Mehmandarov - 160

# Hərb tariximizin fəxri

I məqalə

***Azərbaycan xalqının qürur mənbəyi olan qəhrəmanlıq tarixinin formalaşmasında, onun zəngin hərbi ənənələrinin inkişaf etdirilməsində istedadı, məharəti və təşkilatçılıq qabiliyyəti ilə dəyərli irs qoyub getmiş sərkərdələrin böyük rolu olmuşdur. Belə sərkərdələrdən biri də tam artilleriya generalı Səməd bəy Sadıq bəy oğlu Mehmandarovdur.***



1855-ci il oktyabrın 16-da Lənkəranda doğulan Səməd bəy ilkin təhsilini Bakıdakı Əddadiyyə (Realnı) məktəbində aldıqdan sonra, Peterburqdakı 2-ci Konstantin hərbi məktəbinə daxil olmuş və bununla da həyatını çar ordusu ilə bağlamışdı. Onun zabit həyatının böyük hissəsi də çar ordusu tərkibində keçmişdi. Səməd bəyin hərbi istedadı, xidmətin gedişini öncədən duymaq qabiliyyəti, hərbi-təşkilatçılıq bacarığı məhz çar ordusunun sıralarında parlamışdı. Bu insanın qeyri-adi komandirlik keyfiyyətləri hətta azərbaycanlıların orduya cəlb edilməsinə meyilli olmayan çar ordusu rəhbərliyi tərəfindən də yüksək qiymətləndirilmişdi və nəticədə artilleriya üzrə tam general (general-polkovnik) rütbəsinə kimi şərəfli bir yol keçmişdi. Səməd bəy Azərbaycanın hərb tarixində tam general rütbəsinə layiq görülmüş birinci azərbaycanlı idi və şübhə yoxdur ki, çar ordusu sıralarında milli və dini ayrı-seçkiliyə yol verilməsəydi, S.Mehmandarov ən ali rütbələrə belə layiq görülə bilərdi.

Ancaq Səməd bəy Mehmandarovun zabit həyatının və hərbi xidmətinin zirvəsi Azərbaycan milli ordusunun təşkili istiqamətində gördüyü işlərdir. Cümhuriyyət ordusunun yaradılması onun həyatının şah əsəridir. Ömrünün ixtiyar yaşında tale ona xalqına xidmət etmək, bir hərbçi kimi nəyə qadir olduğunu sübut etmək fürsəti nəsib etmişdi. O da bu imkandan məharətlə istifadə etdi, Cümhuriyyət ordusunun hərbi naziri kimi uzun illərdən bəri hərb işindən ayrı salınmış xalqının nələrə qadir olduğunu ortaya qoydu. Səməd bəy yorulmazlığı, istedadı, sədaqətli xidməti ilə qısa müddət ərzində uzun illər üçün nizami hərbimizə örnək olacaq bir miras qoyub getdi. Cümhuriyyət ordusunun əvəzsiz hərbi naziri olan S.Mehmandarov bu məsul vəzifədəki xidməti ilə göstərdi ki, o, nizami Azərbaycan hərbçisinin ən böyük və təkrarolunmaz simalarından biridir və onun həyat yolu hər bir Azərbaycan zabitinə örnək ola bilər.

### S.Mehmandarov və hərbi strategiya

Cümhuriyyət ordusu təşkilinin əsas amillərindən biri ordunun rəhbər orqanları ilə dövlət orqanları arasında əlaqələrin düzgün qurulması idi. Hərbi nazir kimi S.Mehmandarov ordu və dövlət arasındakı əlaqələrin xarakterini kifayət qədər dəqiqliklə müəyyənləşdirmiş və onun Hərbi Nazirliyə rəhbərliyi müddətində bu məqama ciddi riayət edilmişdi. S.Mehmandarov öz əmrlərində dəfələrlə qeyd etmişdi ki, ordu siyasətə qarışmamalıdır və yalnız ona tapşırılan vəzifənin icrası ilə məşğul olmalıdır. Ordunun qarşısında dayanan başlıca vəzifəni isə Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasında görürdü. Onun bu mövqeyi dövrün siyasi liderləri tərəfindən də layiqincə qiymətləndirilirdi və Cümhuriyyətin mövcudluğu dövründə bir neçə hökumət kabinəsi dəyişsə də, S.Mehmandarov hərbi nazir vəzifəsində dəyişməz olaraq qalmışdı.

S.Mehmandarov tərəfindən qaldırılan bütün məsələlər istər hökumətdə, istərsə də parlamentdə diqqətlə müzakirə edilir və bir qayda olaraq, ordunun möhkəmləndirilməsinə xidmət edəcək qərarlar qəbul edilirdi. Hərbi nazir həm hökumətin, həm də parlamentin iclaslarında çıxış edir və ölkə miqyasında hərbi quruculuq sahəsində görülməli olan İşləri həmin orqanların diqqətinə çatdırırdı. S.Mehmandarov özü də Dövlət Müdafiə Komitəsinin üzvü idi və hərbi quruculuğun istiqamətləndirilməsinə xidmət edən bu ali dövlət orqanının fəaliyyətinin səmərəliliyinə çalışırdı.

Ölkənin iqtisadi imkanlarının müdafiə qüdrətinin möhkəmləndirilməsinə səfərbər edilməsi, xalqın mənəvi əhval-ruhiyyəsinin qaldırılması, müstəqilliyə zidd olan qeyri-sağlam ideoloji təbliğatın aradan qaldırılması sahəsində də S.Mehmandarov əməli təkliflərlə çıxış edir və hökumət orqanları ilə bu məsələlərin əlaqələndirilməsinə çalışırdı.

S.Mehmandarovun və onun silahdaşlarının prinsipial fəaliyyəti Cümhuriyyət siyasətçilərində belə bir qənaət yaratmışdı ki, orduya münasibət iddiasız olmalıdır və Silahlı Qüvvələr bütün cəmiyyətin dayağına çevrilməlidir. Məhz buna görə də xalqla, ictimai-siyasi təbəqələrlə ordu arasında bir yekdillik var idi və bu yekdillik ordunun gücünü daha da artırırdı.

### S.Mehmandarov və təşkilatçılıq qabiliyyəti

Cümhuriyyət ordusunun qısa müddətdə formalaşması və hərb tariximizdə özünə layiqli yer tutması S.Mehmandarovun təşkilatçılıq istedadının məntiqi nəticəsi idi. Bu istiqamətdəki fəaliyyətinə o, 1918-ci il noyabrın 1-dən başlamışdı. Hökumətin müvafiq qərarı ilə hərbi nazirin müavini kimi Cümhuriyyət ordusunda xidmətə başlayan S.Mehmandarova Hərbi Nazirliyin formalaşdırılması tapşırılmışdı. 1918-ci il dekabrın 25-də isə o, bu istiqamətdəki xidmətini hərbi nazir kimi davam etdirdi. Xalqın və hökumətin etimadını doğrulda biləcək ordunun yaradılması üçün S.Mehmandarov üzərinə Hərbi Nazirliyin aparatını təşkilatlandırmaq, ordunun aparıcı qüvvəsi olan zabit kadrlarını tapmaq, onları seçmək, fəaliyyətlərini nizamlamaq, uzun illər boyu hərbi xidmətdən yadırğadılmış əhali arasında çağırış işini təşkil etmək, mövcud hərbi hissələri yenidən qurmaq, onların və yeni yaradılacaq hərbi hissələrin təchizat və təminat mənbələrini tapmaq, tamam yeni meyarlara cavab verən təlim-tərbiyənin əsaslarını işləyib hazırlamaq, onları tətbiq etmək, ordunun bütün şəxsi heyətini qarşıya qoyulan vəzifələrin icrasına səfərbər etmək, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə istiqamətlənmiş hərbi təhdidləri aradan qaldırmaq və s. vəzifələri götürmüşdü. Bu vəzifələrin sayını çoxaltmaq da olar. Özü də nəzərə alınsa ki, bütün bu işlərin icrası sıfırdan başlamalı idi və onların həyata keçiriləcəyi zaman Azərbaycanda çox ağır iqtisadi, hərbi-siyasi şərait mövcud idi, onda ordu quruculuğu sahəsində S.Mehmandarovun qarşısında necə ağır vəzifələr dayandığını təsəvvür etmək olar.

Ancaq S.Mehmandarovun böyüklüyü və hərbi istedadı da onda idi ki, o, mövcud olan ən kiçik imkandan belə xalqın mənafeləri naminə maksimum istifadə etməyi bacarırdı. Bir nazir kimi orduda gedən bütün prosesləri nəzarət altında saxlaya bilirdi. Özü də bu nəzarət sadəcə təftiş xarakteri daşımırdı. Bununla Səməd bəy ordu quruculuğunun bütün sahələrinin səmərəliliyinə təsir göstərirdi. Mövcud olduğu dövrdə Cümhuriyyət ordusunun bütün strukturları, bütün sahələri daim inkişafda və təkmilləşməkdə idi. Əlimizdə olan arxiv sənədləri də bunu sübut edir.

Heç şübhəsiz ki, bu qədər işlərin uğurla aparılmasında S.Mehmandarovun silahdaşları ona yaxından kömək edirdi. S.Mehmandarovun ətrafında Əlağa Şıxlinski, Məmməd bəy Sulkeviç, Süleyman bəy Əfəndiyev, Həbib bəy Səlimov, Teymur bəy Novruzov, Həmid bəy Qaytabaşı, Murad Gəray Tlexas və onlarca başqaları kimi generallar toplaşmışdılar. Səməd bəyin təşkilatçılıq qabiliyyəti bu generalların fəaliyyətində reallaşırdı. Bu generallar və Səməd bəy fəaliyyətlərində bir-birilərini tamamlayırdılar. Həmin generallar olmasaydı, bəlkə S.Mehmandarovun təşkilatçılıq qabiliyyəti də bu şəkildə özünü göstərə bilməzdi. S.Mehmandarov da olmasaydı, bəlkə həmin generallar möhtəşəm vəzifələrin icrasına cəlb edilməz və nəyə qadir olduqlarını açıqlaya bilməzdilər.

**Mehman SÜLEYMANOV,**
**tarix elmləri doktoru**

### Redaksiyanın poçtundan

# Arzu edirəm ki...

***Orta məktəbdə oxuyanda müəllimlərimdən, ailədə ata-anamdan eşitdiyim məsləhətlərə əməl etməyə çalışmışam. İşləyəndə bu məsləhətlər ən yaxın sirdaşım olub. Müəllimlərim də, ata-anam da deyirdi ki, işə can yandırmalısan, iş yerini doğma ocağın bilməlisən. Mən mülki həyatda məhz bu məsləhətlərə əməl eləməklə işləmişəm. İndi iki övladımı da bu amalla böyüdürəm.***

Aradan illər keçəndən sonra hərbi forma geyindim. Hərbi Nizamnamələrin tələblərinə uyğun nümunəvi xidmət eləmək başlıca amalım oldu.

Oxuduqlarımız, eşitdiklərimiz dünyagörüşümüzün formalaşmasına gərəkli olub. Biz də Vətənə layiqli vətəndaş olmağa çalışmışıq. Həyat yoldaşım zamanında hərbi kollektivlərdə işləyib. Ailədə söhbətlərimizin başlıca mövzusu Vətən olardı, torpaq olardı. Silahlı Qüvvələrimizdə geniş islahatlar aparıldıqdan sonra qadınların da hərbi xidmət eləməsinə imkan yarananda, həyat yoldaşım mənim istəyimi razılıqla qarşıladı. İndi baş matrosam. Hərbi hissənin kargüzarlığında çalışıram. Bilirəm ki, vəzifəm məsuliyyətlidir, istənilən sənədə çox ciddi diqqət yetirilməlidir. Sənədlər vaxtında icra olunmalıdır.



İstər komandanlığın, istərsə də şöbələrin fəaliyyəti müəyyən mənada sənədlərə münasibətdən də asılı olur. Hərbi hissəmizin döyüş hazırlığının yüksəldilməsində kargüzarlığa daxil olan sənədlərin vaxtında işlənilməsinin, icra olunmasının mühüm əhəmiyyətə malik olduğunu bilirik və buna həmişə ciddi diqqət yetiririk.

Fəxr edirəm ki, mən hərbçiyəm. Anasının hərbçi olmasıyla oğlum da qürurlanır, qızım da. Oğlumun əsgər olacağı günü o qədər həvəslə gözləyirəm ki...

Torpaqlarımızın işğal olunması mənim də dərdimdi. Doğma yurd-yuvasından didərgin düşən anaların-bacıların qəlbini gizildədən qəhəri yaxşı başa düşürəm. Onların hər birinin ağrı-acısına mən də şərikəm. İnanıram ki, onlar tezliklə doğma evlərinə qayıdacaqlar. Bunu Silahlı Qüvvələrimiz gerçəkləşdirəcək.

8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə təkcə hərbi hissəmizdə deyil, ümumən Silahlı Qüvvələrimizdə xidmət edən, işləyən bütün qadınları təbrik edirəm. Onlara xidmətlərində uğurlar arzulayıram.

**Günel İSRAFİLOVA,**
**baş matros**

AZƏRBAYCAN ORDUSU


# "Adın şərəflidir sənin, ey qadın!.."




***Xalq şairi Səməd Vurğunun misrasıdı. Böyük sevgilərlə, böyük vurğunluqla deyilmiş fikir hamımızın ürəyini təlləndirir. Bu misra da, ana harayı bildiyimiz***

*Ana qəlbim odlanır,*
*Söz düşəndə davadan... -*

analara ehtiramla yazılıb. Vətənin göylərinə qara buludlar dartınanda, o buludlar göy üzünü bürüyəndə oğullarını uğurlayan analara istəyinin - bəşəriliyinin ifadəsidi.

İnsan bütün ömrü boyu ana kəlməsinin, bu kəlmənin mahiyyətinin, müqəddəsliyinin pərvanəsi olur. Cəfər Cabbarlının anasına (analara!) xitabən dediyi "...mən sənə rahibəm itaətdə" etirafı da bunun təsdiqidi...

Qadın ictimai həyatın müxtəlif sahələrində çalışır; qadın anadı, qadın müəllimdi, qadın mühəndisdi, qadın həkimdi, hakimdi, qadın dövlətin idarəetmə strukturlarında çalışır,... Qadın həm də hərbçidi. Birinci Qarabağ müharibəsində qadınlar da ermənilərə qarşı vuruşurdu, yaralılara xidmət göstərirdi, döyüşən hərbi hissələrin qərargahında kargüzar kimi çalışırdı. Neçəsi ordenlə, medalla təltif edildi...

Silahlı Qüvvələrimizdə aparılan geniş miqyaslı islahatlardan sonra qadınlar hərbi xidmətə cəlb olundu, məişət işləri onlara həvalə edildi. Bu, əsgərlərin döyüş hazırlığının yüksəlməsi baxımından da əhəmiyyətli oldu...

8 Mart Beynəlxalq Qadınlar Günü Hərbi Dəniz Qüvvələrində də böyük coşqu ilə qeyd edildi. Tədbirə dəvət edilən hərbçi qadınların baxışlarında bir şükranlıq vardı. Vətənin keşiyində dayananların sırasında olduqlarına görə, bu günün ovqatını hərbçilərin əhatəsində təntənəli şəkildə yaşadıqlarına görə, cəmiyyətdə də bu ehtiramla əhatələndiklərinə görə...

Tədbiri birinci dərəcəli kapitan Natiq Bağırov açaraq Silahlı Qüvvələrimizin döyüş və mənəvi-psixoloji hazırlığında qadınların rolunu diqqətə çatdırdı.

Tədbirdə ümummilli liderimiz Heydər Əliyevin və ərazi bütövlüyümüz naminə şəhid olanlarımızın ruhu bir dəqiqəlik sükutla yad edildi.

Dövlət himnimiz böyük coşqu yaratdı...

Sonra birinci dərəcəli kapitan Şahin Məmmədov çıxış edərək qeyd etdi ki, Azərbaycan qadını bütün dövrlərdə zəkası, ictimai fəallığı ilə elm və mədəniyyətin, incəsənətin milli dəyərlər əsasında dinamik inkişafında, mənəvi dəyərlərimizin qorunub saxlanmasında yaxından iştirak edib. "Bu gün də belədir. İndi Hərbi Dəniz Qüvvələrində yüzlərlə qadın hərbi qulluqçu xidmət edir, işləyir. Ordumuzun döyüş hazırlığının yüksəlməsində onların da əməyi az deyil. Onlar da Hərbi Dəniz Qüvvələrinin inkişafı naminə bacarıqlarını əsirgəmirlər."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu matros Turanə Məmmədli qadın hərbi qulluqçular adından çıxış edərək hərbi peşəni seçmələrindən qürur duyduqlarını, bundan sonra da nümunəvi xidmət edəcəklərini, torpaqlarımızın işğaldan azad edilməsi naminə hər cür fədakarlığa hazır olduqlarını bildirdi. Hər birinə böyük könül xoşluğu verən belə bir tədbirə görə Hərbi Dəniz Qüvvələrinin komandanlığına minnətdarlığını bildirdi. Öz adından qadınlara arzuladığı bir fikir hamını duyğulandırdı: qadın xoşbəxtliyi!..

Birinci dərəcəli kapitan Akif Qasımov da zabitlər adından sıralarında çalışan qadınları bayram münasibəti ilə təbrik etdi.

Xidmətdə fərqlənən qadın hərbi qulluqçulara təşəkkür elan edildi, fəxri fərmanlar, bayram hədiyyələri təqdim olundu.

Bu bayram nə qədər səmimiyyətlə, ehtiramla qeyd edilsə də, hərbi qulluqçu qadınların baxışlarından "Bayram ovqatını Cıdır düzündə də qeyd edəcəyimiz günün həsrətindəyik..." - kəlmələri oxunurdu...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Veteranlarımız multikulturalizm dəyərlərinin təbliğinə əhəmiyyətli töhfə verirlər

***Martın 11-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında "Multikulturalizmin Azərbaycan nümunəsi: Multikulturalizmin inkişafı və beynəlxalq platformaya çevrilməsi başlıca məqsəddir" mövzusunda elmi-praktik konfrans keçirilib.***

Konfransda dövlət qurumlarının, elmi ictimaiyyətin nümayəndələri, ziyalılar və veteranlar iştirak ediblər.

Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev müxtəlif mədəniyyətlərin qarşılıqlı hörmət və etimad şəraitində bir arada yaşadığı multikultural cəmiyyətin Azərbaycanda tarixən mövcud olduğunu vurğulayıb. Bildirib ki, dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni inkişafına mühüm şərait yaradan multikulturalizm xalqlar arasında qarşılıqlı anlaşmanın, dostluq və əməkdaşlığın dərinləşdirilməsinin əsas təməllərindən biridir. Azərbaycanda bu münasibətlər daim qorunub, xalqlar və insanlar arasında qarşılıqlı anlaşmanın təmin olunmasına yüksək diqqət göstərilib. Müxtəlif sivilizasiyaların qovşağında yerləşən Azərbaycan əsrlər boyu ayrı-ayrı millətlərin və mədəniyyətlərin inkişaf etdiyi ölkə kimi tanınıb. Xüsusilə son 20 ildə ölkəmizdə bu dəyərlər dövlət səviyyəsində himayə edilir və multikulturalizmin inkişafı üçün hərtərəfli şərait yaradılır.

D.Rzayev diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı fərmana əsasən, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması ölkədə multikultural mühitin daha da inkişafına mühüm töhfə verib. Azərbaycan Prezidentinin Sərəncamı ilə 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilib. Bu, Azərbaycanda mədəniyyətlər və dinlərarası dialoq mühitinin tamamilə yeni səviyyəyə qaldırılmasına imkan verəcək. Veteranlar Təşkilatı da həmin sərəncamdan irəli gələn vəzifələrin layiqincə yerinə yetirilməsi üçün bütün potensialını səfərbər edib. Bu məqsədlə qurum tərəfindən təhsil ocaqlarında, yerli təşkilatlarda veteranların iştirakı ilə bir sıra tədbirlərin təşkili planlaşdırılır.

Tədbirdə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin aparıcı məsləhətçisi Ceyhun Məmmədov xidmətin yaradılması və ölkəmizdə multikulturalizm dövlət siyasətinin həyata keçirilməsi sahəsində fəaliyyəti haqqında danışıb. Bildirib ki, Azərbaycan tarix boyu etnik, dini tolerantlığı ilə fərqlənib. Bu gün Azərbaycanda müxtəlif dinlərə məxsus insanlar dinc və mehribanlıq şəraitində yaşayırlar. Ölkəmizdə multikulturalizm ənənələrinin təbliğ olunması üçün müxtəlif tədbirlər keçirilir, yerli və xarici ölkələrin universitetlərində Azərbaycan multikulturalizmi fənni tədris olunur. Eləcə də müxtəlif təşkilatlarda multikulturalizmlə bağlı tədbirlər keçirilir. Sevindirici haldır ki, veteranlarımız da multikulturalizm dəyərlərinin təbliğinə əhəmiyyətli töhfə verirlər.

Elmi-praktik konfransda mövzu ilə bağlı məruzələr dinlənilib, müzakirələr aparılıb.

**AZƏRTAC**

# Xəbərlər: hadisələr, faktlar

## Çin beş ildə 50 hava limanı inşa edəcək



Çin 13-cü beşillik inkişaf planı çərçivəsində 2016-2020-ci illərdə 50 yeni hava limanı inşa edəcək.

Bu barədə Çinin nəqliyyat naziri Yan Çuantan məlumat verib.

Nazirin verdiyi açıqlamaya görə, bu hava limanları ölkənin az inkişaf etmiş orta və qərb bölgələrində tikiləcək. Eyni zamanda, yüksək sürətli dəmir yolu şəbəkəsi 11 min kilometr artırılaraq 30 min kilometrə çatdırılacaq. 2016-ci ildə dəmiryol tikintiləri üçün 800 milyard yuan xərclənəcək.

## Şimali Koreya ABŞ-ı qabaqlayıcı nüvə zərbələri endirməklə hədələyib



Şimali Koreya ABŞ-ı qabaqlayıcı nüvə zərbələri endirməklə hədələyib.

Ölkənin rəhbəri Kim Çen In bu barədə nüvə mütəxəssisləri ilə görüşdə deyib. O bildirib ki, əgər ABŞ onun suverenliyinə və mövcudluğuna təhdid edərsə, Şimali Koreya tərəddüd etmədən bu ölkəyə nüvə zərbəsi endirəcək.

Görüşdə, həmçinin Şimali Koreya mütəxəssislərinin hazırladığı kiçik nüvə başlıqları təqdim olunub. Kim Çen In qeyd edib ki, nüvə başlıqları o qədər balacalaşdırılıb ki, onları ballistik raketlərə bərkitmək mümkündür.

## Argentinada 2000 dollaradək maaş alanlar gəlir vergisi ödəmir



Argentinada fiziki şəxslərin gəlirindən tutulmayan vergi həddi ilə bağlı qanunvericilikdə dəyişiklik edilib.

Yeni qanuna görə, 30.000 Argentina pesosundan (1997 dollar) az aylıq əməkhaqqı alan şəxslər gəlir vergisi ödəmir.

İndiyə qədər vergi tutulmayan hədd bu məbləğin yarısı qədər - 15.000 peso idi.

## Sanksiyaların ləğvindən sonra ilk İran nefti Avropaya çatıb



İrana qarşı sanksiyalar ləğv edildikdən sonra bu ölkəyə məxsus xam neft "Monte Toledo" adlı tankerlə Avropaya çatdırılıb.

Təqribən 1 milyon barrel neft daşıyan tanker İspaniyanın Alhesirase limanına daxil olub. Artıq neftin boşaldılmasına başlanılıb. İrana məxsus neft "Cepsa" şirkətinin neft emalı zavodunda istifadə ediləcək.

Tanker İrandan Avropaya 17 günə çatıb.

## Çeçenistanda avropalı jurnalistlərə qarşı hücum olub



Martın 9-da hüquq müdafiəçilərinin Rusiya Federasiyasının Çeçenistan Respublikasına təşkil etdikləri səfərdə iştirak edən avropalı jurnalistlər hücuma məruz qalıblar.

Hadisə paytaxt Qroznıya gedən yolda baş verib. Jurnalistləri daşıyan avtobus bir neçə maşın tərəfindən mühasirəyə alınıb. Jurnalistlər avtobusdan çıxarılaraq maskalı şəxslər tərəfindən döyülüblər, onları daşıyan avtobus isə yandırılıb. İnsident zamanı xəsarət alan iki jurnalist, bir vəkil və avtobusun sürücüsü xəstəxanaya yerləşdiriliblər.

Hadisənin çeçenlər tərəfindən törədildiyi ehtimal edilir.

**AZƏRTAC-ın materialları əsasında**

Ovqat

# Ümidimiz, inamımız

***Hansı ovqatla yazılmasından asılı olmayaraq düşündürən, düşüncələri lazımi məcraya yönəldə bilən şeirə gözəl şeir deyirik. Abbas Səhhətin "Vətənimdir", Səməd Vurğunun "Azərbaycan", Məmməd Arazın "Vətən daşı",... şeiri kimi. Məzmunla poetikanın vəhdəti oxucunu milli-xəlqi ruhumuza kökləyir.***



Şeirin aşıladığı fikir (mətləb) daha təsirli olur. Koroğlu düşür yadıma. Döyüşdən qabaq

*Hoydu, dəlilərim, hoydu,*
*Yeriyin düşman üstünə!* -

deyərdi. Bu müraciət dəlilərin ürəyinin təpərinə dönərdi...

Vətənə xitabən yazılan şeirlərin əksəriyyəti təkcə Vətən sevgisinin deyil, həm də bu sevgi naminə şəhidliyə də hazır olmanın söz (bədii söz) təsdiqidi. Əhməd Cavadın "Azərbaycan" marşı belə müraciətlərdən idi. Üzeyir Hacıbəyovun musiqi yozumunda Azərbaycanımızın Dövlət himni oldu...

Xalq şairi Qabilin "Ümid sənədir ancaq, Azərbaycan əsgəri!" şeiri əsgərlərimizə ünvanlanıb. Milli heysiyyətdən rişələnən bədii təhkiyyə işğalda qalan torpaqlarımızın harayıdı sanki. Şeirdə o torpaqlarımızın sızıltısı, ağrı-acısı nəinki sezilir, həm də görünür. Bu sızıltı, bu ağrı-acı zamanın üzünə oxunan şeir biçimli ittihamdı.

"Ümid sənədir ancaq"... müraciəti beynəlxalq təşkilatların fəaliyyətinin səmərəsizliyindən yaranan narahatlıqdı, əndişədi. Şeirin məzmunu (mahiyyəti) narahatlıqdı, heysiyyətdi. Bu ağrı-acılar çarəsiz ağrı-acı deyil, onların məlhəmi (çarəsi) var. Azərbaycan əsgərinin qətiyyətidi, cəsarətidi bu çarənin adı!

"Dünya başbilənləri səsimizə səs versə də, məzarlığı bəzəyən ehtiram çiçəklərindən kar aşmayacağını" xatırladan şairin müraciəti Ali Baş Komandanın dönməz mövqeyinin şeir şəklində ifadəsidi. "Mən də qan istəmirəm" - deyir şair. "Bu bayrağa kəm baxan bədgumanları" istəməyən şairin

*"...mən də qan istəmirəm!*
*Tükənir səbrim fəqət,*
*Sazişlər, qətnamələr,*
*Bəyanatlar kifayət!..."* -

xəbərdarlığı məmləkətin tələbidi. Şeir ümidə, ümid inama köklənib. Ümid - Azərbaycan əsgəridi, inam - Qələbədi!

Mahiyyəti Azərbaycan əsgərinin, bu anlamda Silahlı Qüvvələrimizin gücünə, qüdrətinə inamdır, şübhəsiz. Həm də Azərbaycan əsgərinin bədii obrazı yaradılıb, təqdim edilib. Şeirin (şairin) "Çaxmaq od saçmasa qov alışa bilməz" - məntiqi deyir ki, o od "Hücum!" əmri olacaq. O od Azərbaycan əsgərinin zəfər məşəli olacaq...

Xalq şairi Qabilin "Ümid sənədir ancaq, Azərbaycan əsgəri!" şeiri poetik müraciətdir və bu müraciətin işığında işğaldan azad edəcəyimiz torpaqlarımızda da dalğalanan bayrağımızı görürük...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## Xarici hərbi xronika

### Yak-130 hücum təyyarəsi



"İrkut" Korporasiyasının Beynəlxalq aviasiya-kosmik salonunda ilk dəfə olaraq modernləşdirilmiş lazerli uzaqölçənlə təchiz edilmiş təlim-döyüş Yak-130 təyyarəsi nümayiş etdirilib. Müəssisənin nümayəndəsinin verdiyi məlumata əsasən, təyyarədə quraşdırılmış lazerli uzaqölçən yerüstü hədəflər üzərində hərəkətin səmərəliliyini daha da artıracaq, çətin ərazilərdə (dağ, dərə) operativ olaraq hədəfin koordinatını müəyyən etməyə və lazım olan məhvedici aviasiya vasitələrindən istifadə olunmasına imkan yaradacaq. Mütəxəssisin sözlərinə görə, lazerli uzaqölçən döyüş imkanlarını artırmaq və ondan yüngül hücum təyyarəsi kimi istifadə etmək məqsədi ilə xarici sifarişçilərin xahişi ilə quraşdırılıb.

### "Patriya"nın sınağı başa çatıb



"Hərbi Paritet"in məlumatına görə, stansiyalı döyüş maşını "Patriya" şirkəti "Patriya AMY" zirehli transportyorunun hazırlanmasını başa çatdırıb. Silahlanmaya qəbul edilən döyüş maşını ilk dəfə bu il "Defence System Equipment International" sərgisində nümayiş etdirilib.

Zirehli döyüş maşını 30 mm-lik Mk 44 topu və 7.62 mm-lik pulemyotla birlikdə iki yerli qüllə ilə təchiz edilib. Qüllənin hər iki tərəfində uzaq məsafələrdə yerləşən hədəfləri məhv etmək üçün TƏİR (tank əleyhinə idarə olunan raket) quraşdırılıb. Ağır qüllə AMV 8x8 versiyası adı ilə testdən keçirilib. Onun tam çəkisi 30 ton təşkil edir ki, onun 15 tonunu faydalı yük (heyət, yanacaq, silah sistemi və modul mühafizə komponentləri) tutur. ZTR-in 28 ton çəkili versiyası da təklif ediləcək. Yəni döyüş maşınının arxa hissəsində iki vintdən istifadə etməklə su maneələrini aradan qaldırmaq olar. Digərlərindən fərqli olaraq bu maşının daxili həcmi böyükdür, güclü mühərriklə və iri diametrli şinlə təchiz olunub.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Silahlar

# AQS-30 avtomatik qumbaraatan

***AQS-17 qumbaraatanını əvəz etmək məqsədilə Tula Cihazqayırma Konstruktor Bürosunda 1990-cı illərin əvvəllərində məşhur silah ustası V.Qryazyev tərəfindən AQS-30 avtomatik qumbaraatan yaradılıb. Onun seriya istehsalına Kovrov şəhərindəki Deqtyarev adına zavodda başlanıb.***



AQS-30-un üstün cəhəti yüngül olması və manevrliliyidir. Öz sələfilə müqayisədə olduqca yüngüldür - dəzgah və nişangahla birlikdə 17.5 kiloqramdır.

Qumbaraatan silahlanmaya 1995-ci ildə qəbul edilsə də, ictimaiyyətə yalnız 1999-cu ildə göstərilib.

AQS-30-da 30 mm çaplı atışlardan istifadə edilir. Silahın sağ tərəfində bərkidilmiş qutuda 30 qumbara yerləşir və lent vasitəsilə lüləyə göndərilir.

Dəzgahlı avtomatik qumbaraatan düşmənin sığınacaqlardan kənarda, açıq səngərlərdə (xəndəklərdə) və ərazinin təbii qırışlarında, yüksəkliklərin əks tərəflərində yerləşən canlı qüvvəsinin və zirehsiz atəş vasitələrinin məhv edilməsi üçün nəzərdə tutulub.

Silahın avtomatikliyi zatvorun sərbəst təpməsi enerjisinin istifadəsi hesabına təmin olunur. Bu zaman təpmə enerjisi qaytarma yayı tərəfindən tamamilə udulur və avtomatiklik zərbəsiz baş verir. Bu konstruktor yeniliyi qumbaraatanın çəkisini xeyli azaltmağa imkan verib. Zərbə mexanizmi yalnız avtomatik atəş açmağa imkan verir.

AQS-30-un detalları və iş prinsipi sadədir, istənilən şəraitdə istismar etmək mümkündür.

Qumbaraatanın dəzgahı şaquli və üfüqi nişan almaq mexanizminə malikdir.

Mexaniki nişangahdan başqa hədəfi dəqiq nişan almaq üçün optik nişangahdan istifadə edilir. Gecə vaxtı nişangahın şkalasının işıqlandırılması mümkündür. PAQ-17 optik nişangahı 2.7 dəfə böyütmə imkanına malikdir.

AQS-30-un heyəti iki nəfərdən ibarətdir. Silah dəqiqədə 400 atış tezliyinə malikdir. 30 mm çaplı lülənin uzunluğu 290 mm-dir. Mərminin başlanğıc sürəti saniyədə 185 metrdir. İntensiv atəş zamanı 180 atışa icazə verilir və bundan sonra lülə soyudulmalıdır.

Qumbaraatanın nişanalma məsafəsi BOQ-17M və BOQ-30 qumbaraları ilə 1700, QPD-30 qumbaraları ilə 2100 metrdir.

Səfər vəziyyətində qumbaraatan və dəzgahı yığılır, qayış vasitəsilə kürəkdə daşınır.

**Hazırladı:**
**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

Baş gizir Bilalov Sahil Xəqani oğluna 2005-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Musazadə İqbal Sulduz oğluna 2015-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


| Məsul katib | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98 Məktublar şöbəsi: (012) 510-64-28; | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | mayor Vahid MƏHƏRRƏMOV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. | Lisenziya № 361 Sifariş № 119 Nüsxə 4700 |